**TAMAM MUSAYEVA**
**Bakı Dövlət Universiteti**
**tamam.musayeva@icloud.com**

# AZƏRBAYCAN DİLİNDƏ FONOLOJİ SƏVİYYƏDƏ ARTIQLIQ PROSESİ

**Açar sözlər:** Artıqlıq, proteza, norma, saitartımı, samitartımı
**Key words:** Increase, prosthetic, norm, vowel increase, consonant increase
**Ключевые слова**:Увеличение, протезное, в норме, увеличение согласных звуков, увеличение гласных звуков

Azərbaycan dilində fonoloji səviyyədə artıqlıq prosesi geniş yayılmış hadisələrdəndir. Fonetik səviyyədə artıqlıq prosesi özünü səsartımı-proteza hadisəsi şəklində göstərir. Azərbaycan ədəbi dilinin xüsusiyyətlərindən biri də, söz daxilində saitlər, sözün əvvəlində və sonunda isə samitlər yanaşı gələ bilməz. Dilimizdə alınma sözlərdə və ya qrammatik dəyişmədə belə səs yanaşmaları olduqda yanaşı sait və yanaşı samit səsləri bitişdirmək üçün müəyyən səsdən vasitəçi halında istifadə edilir, yanaşı gələn səslər arasına müəyyən səs əlavə olunur. Beləliklə də fonoloji səviyyədə artıqlıq prosesi baş verir. Səsartımı–proteza hadisəsi müxtəlif məqamda, müxtəlif tərzdə baş verir. Belə hadisələrin müəyyən qismi dildə sıx şəkildə işlənir, tədricən ümumiləşir və normada sabitləşir. Müəyyən bir qismi isə məhdud dairədə işlənir, təsadüfi mahiyyət daşıyır və ədəbi dildə qanuniləşə bilmir.

Ağamusa Axundov səsartımı prosesi haqqında yazır: ” Fərqləşmə hadisəsi ilə müqayisədə bu, dilimizdə geniş yayılmış fonetik hadisələdəndir. Öz davamlılığına görə, iki növü var: daimi səs artımı və təsadüfi səs artımı hadisəsi. Daimi səs artımı dilimizdə artıq orfoqrafik norma təşkil edən səsartımı hadisəsinə deyilir. Təsadüfi səs artımı isə yalnız tələffüzlə məhdudlaşır və dilimizdə orfoepik norma kimi fəaliyyət göstərir” (1, 226). Əbdüləzəl Dəmirçizadə yazır: ”Səsartımı hadisəsi məqamına və vasitəsinə görə samitartımı və saitartımı olmaq üzrə iki cür formalaşır. Müxtəlif məqamda yanaşı düşən saitləri bitişdirmək üçün vasitəçi halında saitlər arasına müəyyən samit əlavəsi ilə formalaşan səs artımına samitartımı deyilir. Samitartımı da məqamına və sabitləşmə dərəcəsinə görə iki cürdür: yazıda sabitləşən, yazıda sabitləşməyən. Saitartımı ədəbi dildə ümumiləşmiş qanuni bir hal sayılmır və daha çox şivələrdə, canlı danışıqda müxtəlif məqamlarda olur.” (2, 116)

Müasir Azərbaycan dilində səsartımı hadisəsini göstərmək üçün bu hadisəni belə qruplaşdıraq: 1) orfoqrafiya normalarına əsaslanan səs artımı; 2) orfoepiya normalarına əsaslanan səs artımı.

**1. Orfoqrafiya normalarına əsaslanan səs artımı hadisəsi**. Azərbaycan dilinin ümumi fonetik x üsusiyyətinə görə iki sait səs yanaşı işlənə bilməz. Bu səbəbdən saitlə bitən sözlərə saitlə başlayan şəkilçi artırıldıqda dilimizin fonetik tələbinə görə ya həmin saitlərdən biri düşməli, ya da onların arasına bir samit artırılmalıdır. İki saitin arasına samit artırılarkən samitartımı hadisəsi baş verir. Müxtəlif məqamda yanaşı düşən saitləri bitişdirmək üçün vasitəçi halında saitlər arasına müəyyən samit əlavəsi ilə formalaşan səs artımına samitartımı deyilir. Samitartımı da məqamına və sabitləşmə dərəcəsinə görə iki cürdür: yazıda sabitləşən, yazıda sabitləşməyən.(2, 116)

Yazıda sabitləşən samitartımı orfoqrafik qanun halında istifadə olunan səsartımıdır. Belə ki saitlə bitən sözə saitlə başlanan şəkilçinin bitişdirilməsi üçün araya müəyyən samitlər artırılır və belə samitlər dildə ümumiləşmiş halda bitişdirici samitlər adlanır. “Samitartımının bu növü tam qanuniləşmiş olduğuna görə , yəni həm yazıda, həm tələffüzdə bitişdirici samitlərin artırılması vacib bir qayda sayıldığına görə, bu hadisəni samitartımı qanunu da adlandırmaq olar” (2, 116 ). Müasir Azərbaycan dilində samitartımı hadisəsi də üç samit: y, n, s samiti iştirak edir.

**Y samitinin artımı.** Dilimizdə y bitişdirici samiti aşağıdakı hallarda artırılır.

1.Saitlə bitən isimlər yönlük hal şəkilçisi qəbul etdiyində: ata-y-a, qapı-y-a, ailə-y-ə, Quba-y-a və s.

2.Saitlə bitən feillər saitlə başlayan şəkilçi qəbul etdiyində : oxu-y-ar, gözlə-y-ər, ağla-y-ır, söylə-y-əcək və s.

3. Dilimizin özünə məxsus su, nə sözləri və dilimizə ərəb dilindən keçmiş mənbə, mövqe, mənşə, mənafe, tale sözləri yiyəlik, yönlük, təsrlik, mənsubiyyət şəkilçisi qəbul edərkən, digər saitlə qurtaran sözlərdən fərqli olaraq, y bitişdirici samitinin əlavə olunmasını tələb edir: su-y-un, nə-y-ə, mövqe-y-im, mənşə-y-in,tale-y-imiz, mənafe-y-i və s.

**N samitinin artımı.** Müasir Azərbaycan dilində n bitişdirici samiti aşağıdakı hallarda artırılır.

1.Saitlə bitən isimlər yiylik və təsirlik hal şəkilçisi qəbul etdiyində: pəncərə-n-nin, bacı-n-ın, güzgü-n-ün, qonşu-n-u və s.

2. Üçüncü şəxsin təkinin və cəminin mənsubiyyət şəkilçisini qəbul etmiş sözlər hal şəkilçisi qəbul etdiyində: onun kitabı-n-ın, onun kitabı-n-a, onun kitabı-n-ı, onun kitabı-n-da, onu kitabı-n-dan və s.

3. Bu və o əvəzlikləri istənilən sözdüzəldici və sözdəyişdirici şəkilçilər qəbul etdikdə: bu-n-a, bu-n-u, bu-n-un, bu-n-da, bu-n-dan, bu-n-lar, bu-n-ca, bu-n-suz, o-n-a, o-n-u, o-n-un,o-n-da, o-n-dan, o-n-lar, o-n-ca, o-n-suz və s.

**S samitinin artımı.** Müasir Azərbaycan dilində s samit səs artımının yalnız bir təzahür forması vardır. S samiti yalnız saitlə bitən isimlər üçüncü şəxsin təkinin mənsubiyyət şəkilçisini qəbul etdikdə köklə şəkilçi arasına artırılır: ata-s-ı, dəli-s-i, baba-s-ı və s.

**2. Orfoepiya normalarına əsaslanan səs artımı hadisəsi.**Orfoepiya ədəbi dilin şifahi qolunu ümumi normalar əsasında formalaşdıran, yəni fonetik cəhətdən ümumiləşdirici normaları təzahür etdirən tələffüz qayda-qanunlarının sistemli məcmusudur.(2,142) Azərbaycan dilində fonoloji səviyyədə artıqlıq prosesi bir qisim sözlərdə orfoepik normalara əsasən tənzimlənir. Orfoepiya normalarına əsaslanan səs artımı iki halda dilimizdə özünü göstərir. Samit səs və sait səslərin artımı. Bu hadisələr aşağıdakı hallarda baş verir. 2.1 Samit səsartımı hadisəsi əsasən alınma sözlərdə y səsinin artırılması ilə baş verir. Müasir Azərbaycan dilində bir sıra sözlərdə müxtəlif saitlər yanaşı gəlir və yanaşı halda da yazılır. Lakin bu sözlərin tələffüzü ilə yazılışı fərqli şəkildə təzahür edir. Bu sözlərin tələffüzü orfoepik normaya əsasən tənzim olunur.

1) **Aİ.** Tərkibində ai qoşalığı olan sözlər yazıldığından fərqli tələffüz edilir. Məxrəcləri fərqli olan bu saitlər arasına y samiti artırılır. Y-dan əvvəlki sait səs uzun, sonrakı sait səs isə azacıq qısa tələffüz edilir: ailə-a:yilə, aid-a:yit, xain-xa:yin,dairə-da:yirə və s.

2) **Əİ**. Tərkibində əi qoşalığı işlənmiş sözlər tələffüz zamanı bu saitlər arasına y samiti artırılaraq tələffüz edilir: zəif-zəyif, məişət-məyişət və s.

3) **İA**. Tərkibində ia saitləri yanaşı işlənən sözlərdə tələffüz zamanı y səsi artırılır: dialekt-diyalekt, diaqnostika-diyaqnostika, diametr-diyametr, diaqram-diyaqram və s.

4) **İO**.Tərkibində io saitləri yanaşı işlənmiş sözlərdə tələffüz zamanı həmin saitlər arasına y samiti artırılır və iki formada iyo, iya şəklində tələffüz edilir:biologiya-biyalogiya, radio-radiyo və s.

5) **İU**.Tərkibində iu qoşalığı işlənmiş sözlər tələffüz zamanı bu saitlər arasına y samiti artırılaraq iyu çalarlığında tələffüz edilir: radium-radiyum, radius-radiyus və s.

6) **İƏ**. Tərkibində iə saitləri yanaşı işlənmiş sözlərdə tələffüz zamanı həmin saitlər arasına y samiti artırılır və iyə çalarlılığında tələffüz edilir:şəriət-şəriyət,təbiət-təbiyət, faciə-faciyə və s.

7) **EA**.Tərkibində ea qoşalığı olan sözlər tələffüz zamanı həmin qoşalıq qısa i saiti ilə iya çalarlılığında tələffüz olunur: real-riyal, reaksiya-riyaksiya, teatr-tiyatr və s.

8)**Eİ.**Tərkibində ei saitləri yanaşı işlənmiş sözlərdə ei qoşalığı eyi çalarlığında tələffüz olunur:ateist-ateyist və s.

9)**EO**.Tərkibində eo qoşalığı işlənmiş sözlər tələffüz zamanı bu saitlər arasına y səsi artırılır həmin qoşalıq qısa və dar məxrəcli e ilə eyo çalarlığında tələffüz olunur: feodal-feyodal, teorem-teyorem və s.

10) **OE**. Belə qoşalıq sözün ilk hecası ilə bağlı olduğu zaman fonoloji səviyyədə artıqlıq prosesi özünü göstərir saitlər arasına y səsi artırılır:poetika-poyetika, poema-payema, poeziya-payeziya və s.

11) **Oİ**.Tərkibində oi müxtəlif məxrəcli qoşalığı olan sözlərdə həmin qoşalıq ayi şəklində tələffüz edilir: eqoist-eqayist və s.

12) **UE.**Tərkibində ue qoşalığı işlənən sözlərdə tələffüz zamanı y səsinin artımı baş verir: duet-duyet, duel-duyel və s.

13) **İİ**. Ancaq bir neçə sözün sonunda yazılan ii saitləri arasına y səsinin artımı prosesi baş verir,və ii saitləri araya artırılan y ilə qovuşmuş halda iki qısa i çalarlılığında tələffüz olunur:təbii-təbiyi, bədii-bədiyi və s.

Samitartımı hadisəsi orfoqrafiya normalarına əsaslandığı zaman hər üç bitişdirici samit bu prosesdə iştirak etdiyi halda, orfoepiya normasına əsasən samitartımı prosesində y bitişdirici səsi əsas mövqe tutur. "Y samiti dilimizin başqa novlu samitlərindən fərqli olaraq, daha çox sonorluq akustik keyfiyyətinə malikdir. Başqa sözlə, onun tələffüzü zamanı cingiltili küylə bərabər, musiqili ton da özünü göstərir. Musiqili ton intervokal mövqedə daha çox olur. Buna görə də saitlər arası mövqedə onu saitlərdən ossiloqrafik şəkli cəhətdən fərqləndirmək, demək olar ki, mümkün deyildir" (1, 165). Qoşa saitlər arasına tələffüz zamanı artırılan y səsi tam y səsi deyil, azacıq y məxrəcinə uyğun bir samit səsin tələffüzüdür. Diqqəti çəkən digər bir məsələ isə bütün qoşa saitlər arasına y səsi artırıla bilmir bu hadisə müxtəlif məxrəcli saitlər (qalın və incə, açıq və qapalı saitlər) arasında baş verir. Qoşa saitlər arasına y səsinin artırılması isə bu səsin sürüşkənliyi, fizioloji, akkustik keyfiyyətləri ilə əlaqədardır. Y səsi müxtəlif məxrəcli saitlər arasındakı keçid prosesini yumuşaldır, maneəsiz tələffüzü təşkil edir.

2.2. Sait artımı hadisəsi orfoqrafiya normalarına əsasən yazı prosesində baş vermir. Bu hadisə nitq prosesi zamanı öz əksini tapır və orfoepiya normalarına əsasən tənzim olunur.Aşağıdakı hallarda özünü göstərir; a)Söz əvvəlində iki samit səs yanaşı işləndiyi zaman yanaşı işlənən samitlərdən biri və ya hər ikisi cingiltilidirsə, əvvəldə gələn samit səsdən sonra ahəng qanunu əsasında sonrakı saitlə uyuşan bir sait artırılır. Bu hal orfoepik normaya əsasən tənzim olunur: qrup-qurup xlor-xulor qrip-qirip və s. b) Söz ortasında və söz sonunda iki samit səs yanaşı işlənərsə saitartımı hadisəsi baş verir: hökmdar-hökümdar, qəsbkar-qəsibkar, zülmkar-zülümkar; hərf-hərf-hərif-hərif, əsr-əsir, dövr-dövür, sədr-sədir, meyl-meyil, hüsn-hüsün və s.

Müasir Azərbaycan ədəbi dilində orfoepiya normalarına əsaslanan səsartımı prosesindən başqa ədəbi dilin orfoepik normasına əməl edilməyən

səs artımı hadisəsi də baş verir. Dialekt və şivələrdə də səsartımı prosesi baş verir. Saitartımı ədəbi dildə ümumiləşmiş qanuni bir hal sayılmır və daha çox şivələrdə, canlı danışıq dilində müxtəlif məqamlarda işlənir. Sözün əvvəlinə, ortasına və sonuna sait səslərin artırılması özünü göstərir. Söz əvvəlində saitlərin artımı əsasən alınma sözlərə aid olub, iki vəziyyətdə özünü göstərir: 1) söz əvvəlində st, sk, sp, şk, ş səslərindən əvvəl; 2) söz əvvəlində **r** və bəzən də **l** səslərindən əvvəl. Alınma sözlərdə st, sk, sp, şk samitlərindən əvvəl qapalı saitlərin artımı iki səbəblə: birincisi, Azərbaycan dilində (ümumiyyətlə, türk dillərində) söz əvvəlində iki kar samitin gələ bilməməsi, ikincisi isə, st, sk, sp, şk samitləri ilə başlayan heca tiplərinin olmaması ilə izah etmək olar: istəkan, ispirt, işkaf və s. (3, 64).

## İstifadə olunmuş ədəbiyyat

1.Axundov A. Azərbaycan dilinin fonetiksı. Bakı: Maarif, 1984, 392 s.

2.Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. I hissə, Bakı: Şərq-Qərb, 2007, 256s.

3.Məmmədağa Ş.Azərbaycan dialektologiyasının əsasları. Bakı: Şərq-Qərb, 2008, 416 s.

T. Musaeva

**The excessive process at the phonetic level in Azerbaijan language**

**Summary**

The phenomenon of phonology at the Azerbaijani language is a widespread phonetic phenomenon. At the phonetic level, the excessive process shows itself as a sound-prosthetic event. The surplus process is related to the language development laws. Superiority process is pre-negotiated, over time, summarizes and stabilizes in the norm. The prominent part is casual, and can not legitimate in literary language. In the literary language, besides the elongation process based on spelling and orfoepian norms, there is also an excessive non-normative process.The process of sound reproduction, based on spatial norms, occurs with the help of consonants. There are three consonants in the samitartu event: y, n, s, the adjective consonants. Orfoepic norm-based prosthesis involves both vowels and consonants. The process of obtaining a superficially extends itself in words. The reason for this is to adapt the pronunciation of words to the language of pronunciation. Although this process is widely available, linguistics has not been widely studied.

**Т. Мусаев**

## Излишний процесс на фонетическом уровне в азербайджанском языке

### Резюме

Феномен фонологии на азербайджанском языке является широко распространенным фонетическим явлением. На фонетическом уровне чрезмерный процесс проявляется как звуко-протезное событие. Процесс профицита связан с законами развития языка. Процесс превосходства заранее согласован, со временем обобщается и стабилизируется в норме. Выдающаяся часть является случайной и не может быть законной на литературном языке. В литературном языке, кроме процесса удлинения, основанного на орфографических и орфоэпических нормах, существует также чрезмерный ненормативный процесс. Процесс воспроизведения звука, основанный на пространственных нормах, происходит с помощью согласных. В событии самитарту есть три согласных: y, n, s, прилагательные согласные. Орфоэпический основанный на норме протез включает в себя как гласные, так и согласные. Процесс получения поверхностно расширяется в словах. Причиной этого является адаптация произношения слов к языку произношения. Хотя этот процесс широко доступен, лингвистика не была широко изучена.

**Rəyçi: Yaşar Məmmədli**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**